# Mətnin kateqoriyaları

**Nüşabə Ramiz qızı İsgəndərova**
*Naxçıvan Dövlət Universitetinin*
*elmlər doktoru proqramı üzrə doktorantı*
**E-mail:** isgenderov_ramiz@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. M.Ə. Mahmudov,
filol.ü.e.d., dos. N.Ə. Rəcəbova

**Açar sözlər:** mətn, kateqoriya, mətn nəzəriyyəsi, mətn vahidi, qrammatik məna
**Ключевые слова:** текст, категория, теория текста, единица текста, грамматическое значение
**Key words:** text, category, text theory, text unit, grammatical meaning

Mətnin vahidinə münasibətdə aparıcı mövqe bu vahidin cümlədən böyük olması şərtidir. Əgər sadə cümləni nəzərdə tutsaq, onda hər cür mürəkkəb cümlənin iki və daha artıq sadə cümlədən təşkil olunması faktı mürəkkəb cümləni mətnin minimal vahidi qəbul etməyə əsas verəcəkdir. Mətn nəzəriyyəsini onun kateqoriyaları və əlamətləri çərçivəsində öyrənmək mühüm əhəmiyyət kəsb edir. Mətnin kateqoriya tərkibini müəyyənləşdirmək və təsvir etmək müasir mətn dilçiliyinin əsas məsələlərindən biridir. Mətn kateqoriyaları mətnin ontoloji, qneseoloji və struktur əlamətlərini dərketmənin vacib səviyyəsidir.

Mətnin kateqoriyalarını və əlamətlərini öyrənməyi aktuallaşdıran cəhət bu problemin mürəkkəb və olduqca mübahisəli olmasından irəli gəlir. Hazırda mətnyaradıcı kateqoriyalar və mətnin əlamətləri, eləcə də onların sistemləşdirilməsi haqqında yekdil fikir yoxdur. Bu da mətnin öyrənilməsinə fərqli yanaşmalardan, onun təhlilinin müxtəlif aspektlərdən aparılmasından doğur. Mətnin həm kateqoriyalarını, həm də əlamətlərini qeyd edirlər. Bəzən kateqoriya və əlamət eyniləşdirilir, bəzən isə fərqləndirilir. Eyni zamanda, tədqiqata müxtəlif mətn növlərinin (bədii, elmi, publisistik və s.) cəlb edilməsi, mətnlərin bədii və qeyri-bədii olmaqla iki yerə bölünməsi də araşdırmalara ciddi təsir göstərir. Bədii olmayan mətnlər insan fəaliyyətinin müxtəlif sahələrinə aid olur. Bu cəhət də onları bir-birindən fərqləndirir.

İ.R.Qalperin göstərir ki, "hər hansı tədqiqat obyektindən, o cümlədən də mətndən də onun kateqoriyalarını müəyyənləşdirmədən danışmaq olmaz" (2, s. 4).

Mətn kateqoriyaları probleminin mürəkkəbliyinin əsasında duran ən mühüm cəhətlərdən biri bilavasitə "kateqoriya" anlayışının özü ilə bağlıdır. Kateqoriya fəlsəfə, məntiq və linqvistikada geniş istifadə olunur. Kateqoriya: 1. *fəlsəfə*. Obyektiv aləmin predmet və hadisələrinin (materiya, zaman, məkan, hərəkət, səbəb, keyfiyyət, kəmiyyət və s.) ən əhəmiyyətli xassə və münasibətlərini ifadə edən ümumi anlayışdır; 2. hansısa əlamətlərin ümumiliyi əsasında predmetlərin, hadisələrin, şəxslərin qruplaşdırılmasıdır; 3. *linqvistika*. Müəyyən qrammatik məlaranı qarşılaşdırılması sırasıdır (məs.: hal kateqoriyası verilmiş dilin bütün hallarının toplusudur).

Verilmiş üç izahdan yalnız ikincisi və daha ümumi səciyyə daşıyanı mətnə tətbiqini tapa bilir. Belə aydın olur ki, ənənəvi linqvistika üçün təyin olunmuş kateqoriya anlayışı mətndə təzahürünü tapmır. Çünki mətndə qrammatik mənaya görə qarşılaşdırıla biləcək mətn vahidləri yoxdur. Ümumiyyətlə, mətn vahidi üçün qrammatik məna məsələsini qoymaq olmur.

Mətnin kateqoriyaları. Mətnin kateqoriyası nitq məhsulunun onu başqa dil hadisələrindən

fərqləndirən spesifik əlamətləri kimi təyin edilir (1, s. 364). Bu halda müəyyən əlamətlərin toplusu kateqoriya olur. Belə təyinetmə kateqoriyanın ikinci izahına uyğun gəlir.

Təhlil göstərir ki, mətnin əlaməti ilə mətnin kateqoriyası çox zaman eyniləşdirilir. Kateqoriya mətnin əlamətindən daha çox mücərrəddir, daha ümumiləşdirici səciyyə daşıyır və sahə strukturuna maliklikla seçilir. Mətnyaradıcı kateqoriyaların universallığı onların mətnin dilindən janr və növündən asılı olmayaraq əlaqəli mətndə üzə çıxmasındadır.

Bədii mətnin universal mahiyyəti baxımından kateqoriya bu mətnin məzmununun elə mücərrədləşdirilmiş pilləsi hesab edilir ki, bu halda konkret bədii mətnin məzmununa xas olan ideal mahiyyətlər ayrılsın (5, s. 61). Müəllifin istifadə etdiyi "bədii mətnin məzmununa xas olan ideal mahiyyət" ifadəsi qeyri müəyyəndir.

Mətnin kateqoriyalarını müəyyənləşdirməyi mətn dilçiliyinin mühüm məsələlərindən biri hesab edən, mətni tamamlanmış nitq əsəri sayan, mətnin kateqoriyalarını mətnin xüsusi əlamətləri kimi ayıran İ.R.Qalperin mətnin 10 əsas kateqoriyasını ayırmışdır: 1) informativlik; 2) hissələrə bölünmək; 3) koheziya; 4) kontinuum; 5) mətn parçalarının avtosemantikliyi; 6) retrospeksiya; 7) prospeksiya; 8) modallıq; 9) inteqrasiya; 10) tamamlanma [91, s. 76]. İlk dəfə İ.Qalperinin diqqət mərkəzinə çəkdiyi bu məsələyə sonralar ardıcıl olaraq müxtəlif tədqiqatçılar müraciət etmişlər. Nəticədə bir sıra digər mətn kateqoriyaları adları da ədəbiyyatda qeydə alınır. Əvvəlki informasiya, sonrakı informasiya, inisiallıq/qeyri-inisiallıq, proqressiya və staqnasiya, müəllif obrazı, bədii məkan, bədii zaman, mətnaltı məna, fərdilik, aspektuallıq kimi kateqoriyalar bu qəbildəndir. Göründüyü kimi, mətn kateqoriyalarının ifrat çoxluğu müşahidə olunur. Mətn kateqorilaranın çoxluğu məsələsinə münasibətini bildirən bu kateqoriyaların dairəsinin genişlənməsini nitq əlamətlərini (məsələn, informativlik) mətn üzərinə köçürmək, tam və hissə münasibətini pozmaq (prospeksiya və retrospeksiya), ekstralinqvistik amilləri kateqoriallaşdırmaq (məsələn, presuppozisiya) ilə əlaqələndirilir (1, s. 12).

Şübhəsiz ki, mətn kateqoriyaları mühüm və vacib əlamətlər üzrə təyin olunmalıdır. Bununla belə, mətn kateqoriyaları çərçivəsinə daxil edilən hər bir hadisənin də ətraflı öyrənilməsi vacibdir. Çünki bu, mətnin kommunikativ mahiyyətinin açılmasına kömək göstərir. Məsələn, presuppozisiya linqvistik şərt kimi qəbul edilmədikdə məzmunun elliptik formaları ilə işlənən cümlələrin kommunikativ qənaətbəxşliyini izah etmək mümkün deyildir. Presuppozisiya haqqında yalnız ekstralinqvistik əlamət kimi danışmaq da özünü doğrultmur.

Konkret mətnin təhlili zamanı presuppozisiyanın mətn kateqoriyası və ya zəruri ekstralinqvistik şərti olmasını səciyyələndirmək, yaxud qiymətləndirmək də ayrıca bir məsələdir.

Bədii mətnə münasibətdə 14 mətnyaradıcı kateqoriya fərqləndirilir: 1) tamlıq; 2) əlaqəlik; 3) bitkinlik; 4) mütləq antroposentiklik; 5) sosiallıq; 6) dialoqluq; 7) açıqlıq; 8) ardıcıllıq; 9) statiklik; 10) dinamiklik; 11) gərginlik; 12) estetiklik; 13) obrazlıq; 14) yozumluluq.

A.N.Moroxovski mətn kateqoriyalarının belə «tükənməyən» çoxluğunu mətnin obliqator (əsas) və fakultativ əlamətlərini eyniləşdirmək, mətn və onun kateqoriyalarının əlamətlərinin keyfiyyətlə fərqləndirməyin qeyri-dəqiqliyində görür. Müəllif mətn kateqoriyalarının iyerarxiyasının qurulmadığını da diqqət mərkəzinə çəkmişdir (7, s. 3-8).

Yuxarıdakı təsnifdə tamlıq və əlaqəlik mətnin fundamental kateqoriyası sayılır və fundamental kateqoriyaların onlara yaxın gələn kateqoriyaları öz ətrafına çəkərək qruplaşdırılması qeyd olunur (6, s. 42).

T.V.Matveyeva mətn kateqoriyasını mətnin qarşılıqlı əlaqəli mühüm əlamətlərindən biri hesab edir. Onun fikrinə görə, kateqoriya mətnin ümumi məzmununun müəyyən hissəsinin dilin, nitqin və eləcə də bilavasitə mətnin [kompozitiv) müxtəlif vasitələri ilə inikasıdır (6, s. 74).

Mətn kateqoriyası sadə əlamət deyil, mühüm, əhəmiyyətli (qlobal, fundamental) əlamətdir. Ona görə də, ilk növbədə, mətnin fundamental əlamətlərini linqvistik obyekt olaraq ayırmaq lazım gəlir. Təbii ki, bu zaman dil, onun vahidləri və mətn haqqındakı ən müasir biliklər nəzərə alınmalıdır.

Mətn kateqoriyalarına münasibətdə diqqəti cəlb edən bir cəhət də budur ki, tədqiqatçılar bu anlayışı həm mətn keyfiyyəti, həm sahə, həm də mətnin təhlil vahidi kimi qəbul edirlər. Aydındır ki, belə yanaşma mətn kateqoriyaları siyahısına yeni hadisələrin daxil edilməsinə zəmin yaradır. Məsələn, temporallıq və bağlılıq (prospeksiya+retrospeksiya).

XX əsrin əvvəllərində mətnə sistem münasibət formalaşmışdır. Bu münasibətdə modus (mətn modallığı, müəllif modallığı) əlamətinə xüsusi diqqət verilir. Mətn müəllif modallığı ilə möhkəmləndirilmiş funksional, məzmun və struktur tamdır. Mətnin öyrənilməsinə kommunikativ aspektdən yanaşmada mətnin formal-struktur aləmətləri - hadisə, zaman və məkan; eləcə də, kommunikativ aktın iştirakçıları, dialoqluq kateqoriyası kimi təqdim edilən nitq subyektləri mətnin əsas kateqoriyalarını təşkil edir. Bu kateqoriyalar sisteminə janr və üslub sahələri də əlavə olunur.

O.N.Kopıtovun fikrinə görə fundamental kateqoriyalar üç tələbə eyni zamanda cavab verməlidir: 1) kompozitivlik (mətnin tamlığı və əlaqəliliyi); 2) sahə; 3) təhlilin işlək vahidi olmaq. Müəllif bu üç tələblə yanaşı, kateqoriyaların qarşılıqlı bağlılığını da ön plana çəkmiş və aşağıdakı 5 fundamental kateqoriyanı ayırmışdır:

1. Adresant və adresat kateqoriyası. Bunlardan birincisi müəllifə aid olan bütün xüsusiyyətləri özündə birləşdirir. O, ideya müəllifindən başlayaraq diktora və skriptora qədər, müəllif şəxsdən başlayaraq, bədii əsəri nəql edən ən ekzotik (it, pişik, eşşək, at, canavar və s.) müəllifədək, bəzən anonim qalan müəllifi də nəzərdə tutur. İkinci termin (adresat) oxucu və ya dinləyicini bildirir. Burada da oxucunun, dinləyicinin hər cür keyfiyyəti (savadlı, savadsız, yaxşı, pis, qəddar, rəhmdil və s.) nəzərə alınır.

2. Xronotop kateqoriyası. Bu kateqoriya zaman və məkan bağlılığının bütün formalarını (real, irreal) əhatə edir.

3. Hadisə kateqoriyası (işlərin, vəziyyətin müəyyən gedişi, halı; onun radiusu bütün mətnin radiusuna bərabərdir). Mətnin əsasında bir hadisə durur. Bu hadisə kifayət qədər çox və müxtəlif alt hadisələri özündə cəmləşdirir. Mətndə hadisənin təsviri bütün aktantları nəzərdə tutur.

4. Aktant kateqoriyası (nəqlin qəhrəmanı, təsvir predmeti, müzakirə mövzusu). Aktant-1-baş qəhrəman, aktant-p-personajlar; aktant-1-baş mövzu/əsas mövzu; aktant-n-alt mövzular/yarım mövzular; aktant 1-təsvirin əsas obyekti, aktant-n onun əlamətləri və ya hissələri, yaxud aktant-1-i tamamlayan obyektlər.

5. Diktum və Modus kateqoriyası. Diktum mətndə olub real gerçəklikdəki ilə üst-üstə düşən, ona bərabər və ya uyğun olandır. Modus mətndə olan və onun diktumu üzərində məntiqi psixoloji əməliyyatlar aparılmaqla formalaşandır (4, s. 151-152).

Mövzu əsası ilə informasiya axını əlaqəlilik (koheziya) katoeqoriyasının bütün paradiqmalarını əhatə edir. Bura qrammatik-bağlayıcılar, anafora; semantik-sücet xətti, mövzu və üslubi əlaqələndirmə, remanın inkişafı, intertekstual əlaqələr və s. aiddir. Mətnin modusuna uyğun gələn müəllif başlanğıcı, sahə (sahə subkateqoriyası) müxtəlif səviyyə vahidlərini əhatə edir. Qiymətləndirmə, temporallıq-lokallıq-şəxs (aktuallaşma), imperativlik, sosial-modus, müəllifləşdirmə və doğruluğun ifadə üsulları vardır.

Mətnin bağlılıq problemində, ilk növbədə, diqqəti cəlb edənləri mətnin düzgün və qeyri-düzgün qurulması və nəqletmə (narrativ) qrammatikası prinsipləridir. Bura müxtəlif predmet

tamamlanması ilə fərqləndirilən tipoloji süjetlər də daxildir. Mətnin tamamlanması məcburi deyil, fakültətivdir. Mətnin bağlılıq və tamlıq kateqoriyası əsasında təhlili mətnini dinamikasını, çətin aşkarlanan "müəllif obrazı"nı aşkara çıxara bilmir.

Bəzən mətnin bütün əlamətlərini funksional semantik və üslubi spektrlər arasında bölürlər. Məsələyə bu yöndən yanaşdıqda İ.Qalperinin irəli sürdüyü 10 kateqoriya funksioanl və semantik sahələr üzrə paylanır. Hissələr bölünmə, koheziya, retrospeksiya və prospeksiya, inteqrasiya və tamamlanma funksional, informativlik, avtosemantiklik, mətn parçaları, kontinium, modallıq isə semantik sahəyə daxil olur.

Üslubi sahənin avtonom deyil, funksional və semantik sahə ilə bağlı olduğunu qəbul etsək, onda bu sahələrin mətn kateqoriyaları ilə adekvat dolmasını söyləmək olar. Bu halda mətn kateqoriyalarını məzmun və struktur olmaqla iki yerə bölmək mümkündür. Müəllifin fikrinə görə, məzmun kateqoriyaları sahəsinə məzmun (nitq predmeti), mövzu və verbal əsərin ideyası, mətn forması kateqoriyaları sahəsinə isə kompozisiya, dil və predmetin təsviri üsulları daxil olur. Süjet məzmun və forma kateqoriyalarını birləşdirir. Funksional oblastda əsərin kompozisiyası, semantikada predmet, mövzu, ideya, üslub sahəsində isə dil və ifadə üsulları durur. Mətnin məzmun və struktur dinamikası olan süjetlə funksional və semantik sahələri birləşdirmək olar. Onu da nəzərə almaq lazımdır ki, süjet mətnin üslubuna təsir göstərir. Dil və ifadə üsulları isə elə effektlər yaradır ki, onlar süjeti ya ləngləşdirir, ya da irəli aparır.

Mətn ən yüksək tərtibli qrammatik vahid, ciddi linqvistik obyektdir. Mətn ona aid olan işarələr əsasında yaranmış kateqorial paradiqmalara malikdir. Bu paradiqmalar insan ünsiyyətinin vasitələri kimi çıxış edir. Mətn üç dayaq üzərində qurulur. Onun məzmun, konstruktiv və ifadə tərəfləri vardır. Müəllifin məqsədi rasional və emosional, şüurlu və şüursuz informasiyaları qarışdırmaq və sonda hər cür ünsiyyətin məqsədi olan mətni yaratmaqdır.

Praktik mətn quruculuğunun əsası eksplisitləşdirilmiş tema-rema dinamikasıdır. Mətnin yaradılmasının görünən, çox zaman isə implisit olan vasitəsi müəllif başlanğıcıdır. Linqvistik səviyyədə bu diktumdan daha çox modus səciyyəsi daşıyır.

Mətnin kateqoriyaları məsələsi bu günədək mübahisəlidir və ola bilsin ki, hələ xeyli müddət də bu cür qalsın. Ona görə də, mətnin ümumi qəbul edilən kateqoriyalarını ilk növbədə təyin etmək lazımdır.

Dinamik aspektdən (yaranma və dərkolunma cəhətdən) mətn kateqoriyaları: mövzu, rematik axın, müəllif başlanğıcıdır.

Yaranmış, formalaşmış obyekt kimi mətnin statik kateqoriyaları adresant və adresat; xronotop; hadisə; aktant; diktum və modusdur (5 kateqoriya).

Mətnin linqvistik təsəvvürü üçün əhəmiyyətli olan ekstralinqvistik mətn kateqoriyaları kifayət qədər çoxdur. Ən vacib ekstralinqvistik kateqoriya janrdır. Mətn kateqoriyası kimi informativlik geniş mənada götürülməlidir. Linqvistik cəhətdən bu mətnin diktumunun bir hissəsi olub diktum-retiroduktiv, diktum-faktual, diktum-konseptual yarımkateqoriyalara malikdir. Digər tərəfdən bu, modusun bir hissəsini təşkil edir. Məsələn, qiymət modusun qiymətləndirmə kateqoriyasına daxil olur. Volyuntativ məzmun imperativ modusa, sual-cavab məzmunu həm persuazivlik, həm də imperativ modusda yer ala bilər. Tərkib hissələrinə parçalanma fəlsəfi hissə və tam kateqoriyasının mətnə tətbiqində qaynaqlanır. Mətn bir-birinə daxil olan hissələrdən ibarət olur. Hissə və ya cild, fəsil və bölmə, fəsil və paraqraf, epizod və ya fraqment, mürəkkəb sintaktik bütöv və ya abzas, ifadə və ya cümlə, sözforma. Bütün bunlar mətnin seqmentasiya vahidləri sayılır. Lakin onların da dəqiq iyerarxiyası hələ ki, verilməmişdir.

F.U.Cabbarova mətn kateqoriyasının öyrənilməsində istifadə olunan metadil terminlərini

sadalayaraq onların sinonim olması qənaətinə gəlir və bundan sonra mətn kateqoriyasını belə izah edir: "Mətn kateqoriyasını mətnin müvafiq xüsusiyyətlərini aşkara çıxaran əlamətlər və ya anlayışlar toplusu kimi təyin etmək olar" (3, s. 230).

Mətn kateqoriyalarının sayı tədqiqat işlərində müxtəlif sayda qeydə alınır. Bu saya 1-dən (N.D.Zarubina, O.I.Moskalskaya) başlayaraq dəyişir. İ.R.Qalperin onların sayının 10 olduğunu göstərmişdir.

Z.Y.Turayeva, I.R.Qalperin, V.V.Odinsov və başqaları mətn kateqoriyalarını iki qrupa struktur və məzmun qruplarına ayırmışlar. Z.Y.Turayeva bu kateqoriyaların bir-birini qarşılıqlı şərtləndiyini göstərir. Çünki kateqoriyaları həm məzmun, həm də formal tərəfi vardır. Struktur kateqoriyalar mətnin strukturunda yer alır və linqvistik obyekt kimi ona xasdır. Məzmun kateqoriyalar obyektiv gerçəkliyi əks etdirməklə səciyyələnir (8, s. 81).

T.V.Matveyeva mətnin bütün kateqoriyalarını xətti, sahə və həcmi olaraq üç qrupa bölür (6, s. 16). Onun fikrinə görə, xətti kateqoriyalar bir funksional-semantik mənsubluğa malik dil vahidləri zəncirini əhatə edir. Bura tematik zəncir, mətnin məntiqi parçalanması, prospeksiya/ retrospeksiya aiddir. Sahə kateqoriyası müxtəlif səviyyə vahidləri ilə səciyyələnir. Bu vahidlər semantik yaxınlıq, mətn funksiyaları, dil vahidlərinin təşkilolunma üsullarına görə qruplaşır. Mövzu müəyyənliyi, tonallıq və qiymətləndirmə (subyektiv modallıq), temporallıq (zaman sahəsi), lokallıq (məkan sahəsi), tonallığın, zamanın və qiymətləndirmənin əlavə ifadə vasitələri, mətnin subyektiv təşkili (müəllifləşdirmə) bu qrupda yer alır. Həcmi kateqoriyalar struktur səciyyəlidir. Onlar xətti və sahə kateqoriyaları əsasında modelləşir.

Mətn dilçiliyi üzrə tədqiqatlar əsasında aparılmış təhlil göstərir ki, mətn kateqoriyaları problemi hazırda mürəkkəb və mübahisəli olaraq qalır. Qeyd etmək lazımdır ki, mətn kateqoriyası anlayışını tədqiqatçılar müxtəlif şəkildə təyin edirlər. Bu zaman özək linqvistik kateqoriya olan tekstuallıq-mətnlik mətnin ayrı-ayrı xassələrinin toplusu kimi təqdim oluna bilmir. Mətnin bütün kateqoriyaları qarşılıqlı əlaqəlidir və bir-birini tamamlayır.

**Məqalənin aktuallığı.** Mətnin kateqoriyalarını və əlamətlərini öyrənməyi aktuallaşdıran cəhət bu problemin mürəkkəb və olduqca mübahisəli olmasından irəli gəlir.

**Məqalənin elmi yeniliyi.** Mətn kateqoriyalarının ifrat çoxluğu müşahidə olunduğundan məqalədə təklif edilən təsnif prinsipləri əsasında onların sistemləşdirilməsi məqalənin elmi yeniyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Praktiki cəhətdən bu elmi araşdırma mətnşünaslıq istiqaməti üzrə, mətnin linqvistik təhlili ilə bağlı aparılan tədqiqatlar üçün xüsusi əhəmiyyət kəsb edə bilər.

## Ədəbiyyat

1. Бенвенист Э. Общая лингвистика: пер. с фран. (Общ. ред., вст. ст. и комм. Ю.С. Степанова). М.: Либроком, 2010.

2. Гальперин И. Р. Текст как объект лингвистического исследования. М.: Едиториал УРСС, 2005.

3.Жаббарова Ф.У. Категории текста. (Вестник Башкисркого университета), 2011, №3

4. Копытов, О. Н. Модус публицистического текста. (Научные журналы Урал. гос. пед. ун-та). Политическая лингвистика. №1 (35). (Электронный ресурс - URL: http:// iournals.uspu.ru/ling35, 2011.

5. Лотман Ю.М. Внутри мыслящих миров. Человек-текст-семиосфера-история. М.:

Языки русской культуры, 1996.

6. Матвеева Т. В. Функциональные стили в аспекте текстовых категорий. Свердловск: Изд-во Урал. ун-та, 1990.
7. Мороховский, А. Н. Стилистика английского языка. Киев, 1991.
8. Тураева З.Я. Лингвистика текста. М., 1986.

**Н.Р. Искандарова**

## Текстовые категории

### Резюме

В данной статье рассматривается вопрос определения текстовых категорий и анализируются разные категории наблюдаемые в процессе формирования текста, как единое целое. Актуальность темы обусловлено тем, что в лингвистике текстовые категории все еще считаются нерешенным вопросом, поскольку на данном направлении существуют много спорных моментов. В ходе исследования автор опирается на описательную и сравнительную методы лингвистики. Подводя итоги в конце стать указывается, что все категории текста взаимосвязаны и дополняют друг друга.

**N.R. Isgandarova**

## Textual categories

### Summary

This article discusses the issue of defining text categories and analyzes the different categories observed in the process of text formation as a whole. The relevance of the topic is due to the fact, that in linguistics, text categories are still considered an unresolved issue, since there are many controversial issues in this area. During the research, the author relies on descriptive and comparative methods of linguistics. Summing up at the end of the article, it is indicated that all categories of the text are interrelated and complement each other.

**Redaksiyaya daxil olub:** 06.11.2020